AZƏRBAYCAN www.azerbaijan-news.az

Elm xadimləri

# Yüksək ziyalı mövqeyi

Tariximizi və taleyimizi səciyyələndirən cəhət budur ki, ta qədimdən bugünə qədər Azərbaycan xanımları həmişə xalqın birgə yaşayışında fəal iştirak edirdilər. Öz gözəllikləri, zərifllikləri, nəcib əməlləri, ağıl və zəkaları ilə təkcə mükəmməl ailə kultu yaratmayıblar, ərdəmli oğullar, kübar qızlar tərbiyələndirməklə bahəm, milli mənəviyyatın, ictimai əxlaqın formalaşması və sağlam, uzaqgörən idarəçilik işinə də öz töhfələrini vermişlər.



Bu mənada Azərbaycan tarixində, müstəqil dövlətimizin bu günündə ləyaqətli nümunələr, şərəfli imzalar var. Öz fədakar əməyi, fəal ictimai mövqeyi, filologiyamızda özünəməxsus yeri olan belə xanım-xatın qadınlardan biri də Bakı Slavyan Universitetinin rektoru, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, YAP Qadınlar Şurasının sədri, əməkdar müəllim, filologiya elmləri doktoru, professor Nurlana Əliyevadır. Maarif tariximizdə əvəzsiz yeri olan Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra 1970-ci ildə Bakının Nəsimi rayonundakı Pionerlər evində metodist kimi pedaqoji fəaliyyətə başlayan Nurlana Əliyeva 26 iyun 2016-cı ildə respublika Prezidenti İlham Əliyevin sərəncamı ilə Bakı Slavyan Universitetinin rektoru təyin olunanadək 134 nömrəli orta məktəbdə (1975-1979), Bakı Maliyyə-Kredit texnikumunda (1979-1990) dil-ədəbiyyat müəllimi işləmiş, 1990-cı ildən bəri 25 il qədim və unikal təhsil ocağı Azərbaycan Dövlət Pedaqoji Kollecinə rəhbərlik etmişdir.

Nurlana Əliyeva Azərbaycan cəmiyyətində elmi-pedaqoji və ictimai-siyasi mövqeyi ilə seçilən xanım ziyalılarımızdandır. Belə ki, o, Azərbaycan müəllimlərinin və Azərbaycan qadınlarının bir neçə qurultayının nümayəndəsi seçilmiş, həmin mötəbər məclislərdə azərbaycançılıq və dövlətçilik ruhunda məzmunlu çıxışlar etmişdir. 1998 və 2003-cü illərdə Prezidentliyə qeydə alınmış namizəd, dünya şöhrətli siyasətçi Heydər Əliyevin vəkili qismində fəaliyyət göstərmişdir.

Bütün bunlarla bərabər, Nurlana Əliyeva peşəkar ədəbiyyatşünas, milli pedaqoji fikirlərimizin tanınmış təşkilatçısıdır. O, Azərbaycan ədəbi mətbuatında məqalələrlə daha əvvəl çıxış etsə də, ədəbiyyatşünaslıq elminə ötən əsrin 80-ci illərində gəlib. Bu dövr ədəbi tənqiddə və ədəbiyyatşünaslıqda yeni mərhələ olan 60-cı illər nəslinin intensiv təhsil və tədqiq olunduğu dövr idi.

Nurlana xanım bu aktual mövzunun mübahisəli tərəfindən yapışmışdı: "Azərbaycan bədii nəsrində müasir kənd". Hələ 70-ci illərdə Həsən Quliyevin 60-cıların nəsri haqqında "Kənddən şəhərə yarı yolda" (1976) tənqidi məqaləsi çap olunduqdan sonra bu istiqamətdə ədəbi mübahisələr başlanmışdı. Nurlana Əliyeva namizədlik dissertasiyasında bir növ həmin mövzuya aydınlıq gətirdi və inandırıcı elmi-nəzəri yekun vurdu.

Sonrakı elmi-pedaqoji fəaliyyəti göstərdi ki, Nurlana xanımın nəsrə və elmi işə münasibəti ötəri bir həvəs, müəllimlik naminə diplom almaq niyyəti deyil. Növbəti onillik onun 60-80-ci illər nəsrinin lirik-psixoloji tənqidi və nəzəri-tarixi tədqiqi səviyyəsində səmərəli axtarış illəri oldu. Belə ki, alimin onlarla məqaləsi ilə bərabər, "Bədii nəsr və kənd" (1989), "Zəkanın nurunda" (1993), "Narahat ömrün səhifələri" (1995), "60-80-ci illər Azərbaycan nəsrində qəhrəman və üslub axtarışları" (1997), "Anar - şəxsiyyət və sənətkar" (1999), "60-cı illər Azərbaycan nəsri-bütövlük müstəvisi" (Berlin 2003)... Nəhayət, bütöv bu novator tədqiqatlarının əsas nəticələrini doktorluq dissertasiyası kimi ümumiləşdirmək zamanı gəlib çatdı. Nurlana Əliyeva 2004-cü ildə üzərində səbir və inamla işlədiyi "60-80-ci illər Azərbaycan nəsrində qəhrəman və üslub axtarışları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etdi.

Ümumən sovet ədəbiyyatında 60-cı illəri xüsusi bir mərhələ - 60-cılar mərhələsi kimi səciyyələndirən onların qəhrəman və üslub sahəsindəki yenilikləri idi. Qəhrəman və üslub bu dövr nəsrinin şah damarı, dissertasiyanın məntiqi, onun ədəbi-tarixi, bədii-fəlsəfi və estetik mahiyyətini açmaq idi. Burada: 1. Müstəqil qəhrəman konsepsiyasının tənəzzülə uğraması; 2. Mənəvi-əxlaqi axtarışların bədii mahiyyəti; 3. Təfərrüatlardan poetik dəqiqliyə keçid; 4. Sosioloji amildən estetik analitik keçid, ədəbiyyatın sosioloji çamurluqdan poetik müstəqilliyə gəlməsi; 5. Yazıçı şəxsiyyətinin yaradıcılıq prosesində ön plana çəkilməsi və s. bu kimi ədəbi-tarixi və nəzəri-estetik problemlər yeni nəsrin və 60-80-ci illər ədəbi tarixi prosesinin əsas xüsusiyyətləri kimi ədəbiyyatşünaslıq elmində təqdim olunur.

Sabir adına Pedaqoji Texnikumun direktoru Nurlana Əliyeva filologiya elmləri doktoru, professor olmağı ilə kifayətlənmir, ədəbiyyatşünaslıq, pedaqogika, ictimaisiyasi araşdırmalarını səylə davam etdirir: "Zəka və ülviyyət məbədi" (1999), "Müstəqillik ərəfəsi və mədəni inqilabi dəyərlər" (2008), "Zamanın sözü" (2009) kitabları Azərbaycan cəmiyyətində baş verən ictimai-mənəvi prosesləri sistemli tərzdə araşdıran əsərlərdir.

Hər bir azərbaycanlı kimi professor Nurlana Əliyeva ümummilli lider Heydər Əliyev ideyalarına dərindən bağlı, sədaqət və səmimiyyətlə xidmət edən vətəndaş ziyalıdır.

O, Heydər Əliyev epoxasının yetişdirdiyi qadın ziyalı nümunəsi, çağdaş qadın hərəkatının özülüdür. Buna əmin olmaq üçün Nurlana xanımın istedad və məhəbbətlə, zərif xanım həssaslığı ilə yazdığı "Müstəqilliyimiz və mənəviyyatımız" (2003), "Zəmanəmizin ən böyük azərbaycanlısı" (2007), "Əbədiyaşarlıq fəlsəfəsi" (2013) kimi kitablarını oxumaq kifayətdir. Bu əsərlərdə Heydər Əliyevin müstəqil Azərbaycan uğrunda mübarizəsi, uzaqgörən daxili və xarici siyasəti, parlaq şəxsiyyəti, siyasi iradəsi, Vətən sevgisi haqqında həqiqətlər əksini tapır. Başlıcası isə bu kitablarda müəllifin Heydər Əliyevə böyük sevgisi ifadə olunur. Onları milli sərvətimiz olan Heydər Əliyev irsinin öyrənilməsi sahəsində faydalı elmi mənbə kimi səciyyələndirmək olar.

Ədəbiyyatşünaslığımızda 60-cı illər yazıçılarının yaradıcılığına həsr olunmuş maraqlı kitablardan biri Nurlana Əliyevanın "Anar - şəxsiyyət və sənətkar" monoqrafiyasıdır. Sənətkar şəxsiyyəti və yaradıcılıq prosesi bütün dövrlərdə ədəbi-nəzəri fikrin aktual problemi olub. Bu mövzuda "Yazıçının yaradıcılıq fərdiyyəti və ədəbiyyatın inkişafı" əsərinə görə görkəmli sovet ədəbiyyatşünası M.B.Xrapçenko o dövrün ən böyük mükafatına - 1974-cü il üçün Lenin mükafatına layiq görülmüşdü. Bu, təkcə ədəbiyyatşünaslıq deyil, həm də yaradıcılıq psixologiyası problemidir.

Professor N.Əliyeva da 60-cı illər nəsrinin yaradıcılarından biri olan Anarın yaradıcılığını bu kontekstdə nəzərdən keçirir. Anarın hekayə və povestlərini lirik-psixoloji nəsrin nümunələri kimi araşdırmaya cəlb edən müəllif bütövlükdə onun nəsrini üslub və qəhrəmanın yeni təzahür xüsusiyyətləri kimi izah edir. Biz bu monoqrafiyanı təhlil və nəzəri nəticələrinin məntiqini təmin edən üç ümdə cəhəti qeyd etməliyik: birincisi budur ki, Nurlana Əliyeva 60-cı illər nəsrini, bu kontekstdə də Anarın əsərlərini XX əsr realist nəsrinin, xüsusilə Mirzə Cəlil nəsrinin bədii təcrübələri və poetik ənənələri məcrasında araşdırır; ikincisi isə təsvir-tənqidi üsulu ilə deyil, təhlil tənqidi-analitik tənqid tərzində araşdırma aparır; üçüncüsü budur ki, müəllif Anarın yaradıcılığını onun haqqında ədəbi-tənqidi fikirdən bir an belə ayırmadan - müqayisəli-tipoloji tərzdə araşdırır.

Obyektiv həqiqəti aşkara çıxarmağa real imkan verən belə tədqiqat üsulu alimin bütün əsərləri üçün xarakterikdir. 60-cı illər nəsrinin istedadlı nümayəndəsi İsi Məlikzadənin yaradıcılığını da Nurlana xanım məhz bu metodla tədqiq edir. Yazıçı haqqında monoqrafiyada lirik-psixoloji üslubda yazan edibin kənd və təbiət mövzusunda əsərləri müasir ekoloji problemlər müstəvisinə çıxarılır. Lakin müəllif əsas diqqəti bu təvazökar yazıçının "Kövrək qanadlar", "Küçələrə su səpmişəm", "Yaşıl gecə", "Günəşli payız", "Dədə palıd", "Gümüşgöl əfsanəsi"... kitablarına toplamış əsərlərdə əks olunan mənəviyyat ekologiyasına sadə və müasir insanın mənəvi aləmində baş verən təbəddülatlara yönəldir. Ədibin "Evin kişisi", "Quyu" kimi povestlərində əks olunan mənəvi aşınmaların bədii-fəlsəfi mahiyyətini açır.

Dərslik yazmaq çətindir. Hər alim, hər tədqiqatçı dərslik yaza bilmir. Bunun üçün filoloji və pedaqoji savad bəs eləmir. Dərslik dəqiq fikirlər, münasib anlayışlar və aydın üslubla yazılmalıdır. Bu mənada N.Əliyevanın "Sovet dövrü Azərbaycan ədəbiyyatı" (2013) dərsliyini uğurlu təşəbbüs hesab etmək olar. Əvvəla, dərsliyin adı düzgün müəyyənləşib: "Azərbaycan sovet ədəbiyyatı" yox, "Sovet dövrü Azərbaycan ədəbiyyatı". Birinci halda bolşevik-kommunist ideologiyasına xidmət edən ədəbiyyat nəzərdə tutulur. İkinci halda isə sovet dövründə - XX əsrin 70 il ərzində yaranmış milli Azərbaycan ədəbiyyatından söhbət gedir.

Bu dərslik müharibə dövründən (1941) müstəqilliyin yenidən bərpası dövrünə (1991) qədərki 60 il ərzində Azərbaycan ədəbiyyatının əsas mərhələlərini və şəxsiyyətlərinin yaradıcılığını əks etdirir.

Dərslikdə ədəbi mərhələlər və ədəbi cərəyanlar kontekstində həmin dövrdə yazıb-yaratmış 40-a qədər yazıçı və şairin taleyi, ədəbi irsi nəzərdən keçirilir, barəsində müfəssəl portret-oçerklər verilir.

"Müstəqillik ərəfəsi və mədəni inqilab dəyərləri" adlı tarixi-fəlsəfi monoqrafiyası bizə Nurlana xanımdan ictimaiyyətşünas alim kimi danışmağa imkan verir. XX əsrin mühüm tarixi-ictimai proseslərini müstəqillik prizmasından dəyərləndirən müəllif milli oyanış, milli tale, Azərbaycan tarixinin türkçü konsepsiyası, erməni məsələsi, ana dili, klassik ana dili, mətn və islam amili, milli təhsil və müstəqillik, mədəni təkamül və milli şüurun inkişafı, qadın azadlığı - gender məsələsi kimi qlobal nəzəri tarixi problemlərin təhlilini də ön plana çəkir.

Çevik üslub, tizfəhm mühakimə, tarixilik prinsipi və dövlətçilik duyğusu professor Nurlana Əliyevanın əsərlərinin əsas məziyyətləridir. Həm nəzəri-filoloji, həm maarifçi pedaqoji, həm siyasi-ideoloji sahədə fədakarlıqla çalışan Nurlana Əliyeva müstəqil Azərbaycanın həyatında iz qoyan layiqli ziyalılarımızdandır.

Professor Nurlana Əliyevanın fəaliyyəti çoxşaxəlidir. Filoloq alim, pedaqoq, təhsil rəhbəri və təşkilatçısı, fəal ictimai xadim, qadın hərəkatının lideri və nəhayət, jurnalist-publisist. Məşğul olduğu bütün sahələrdə o özünü aydın qayəli, vətənpərvər, öz prinsipləri olan peşəkar mütəxəssis kimi göstərib. O, başladığı işi inam və inadla başa çatdırır, yarımçıqlığı, ötəriliyi sevmir.

Pedaqoji kollecin direktoru işlədiyi dövrdə - 1990-cı ildən bəri Nurlana Əliyeva minlərlə gənc müəllimin diplomuna qol çəkib, onlara xeyir-dua verib. İndi müstəqil Azərbaycanın hər yerində ibtidai siniflərdə dərs deyən müəllimlərin qəlbində bir Nurlana xanım sevgisi var. Özü də indi Azərbaycan Dövlət Pedaqoji Kolleci adlanan bu təhsil ocağının məzunlarının əksəriyyəti qızlar olub, Nurlana xanım onlara həm də nəciblik dərsi - xanımlıq təlimi keçib. Təsadüfi deyil ki, indi o, YAP Qadınlar Şurasının sədri kimi qadın hərəkatına, qadın siyasətinə rəhbərlik edir.

Professor Nurlana Əliyeva 2009-cu ildən elmi-publisistik, ictimai-siyasi istiqamətli "Zəriflik" jurnalının baş redaktorudur. Onun dəst-xətti ilə çıxan bu jurnal qadın dünyasının sosial-siyasi, mənəvi-əxlaqi, intellektual və zəriflik-gözəllik kimi aktual problemlərinə güzgü tutur, milli mentalitetimizin qorunub saxlanılmasına xidmət edir.

"Şöhrət" ordenli, əməkdar müəllim, professor Nurlana Əliyeva elmi filoloji-pedaqoji təcrübələri əsasında iki dərslik çap etdirib. Ali və orta ixtisas məktəbləri üçün yazdığı "Sovet dövrü Azərbaycan ədəbiyyatı (1941-1991)" (2013) adlı fundamental dərsliyi adından da göründüyü kimi, yarım əsrlik mürəkkəb, zəngin və ziddiyyətli bir dövrün ədəbi-tarixi prosesini əks etdirir.

Həm ictimai-siyasi, həm ədəbi-tarixi hadisələrə qlobal meyarlarla yanaşma, milli təəssübkeşlik, dövlətçilik duyğusu, milli-mənəvi yaddaş üçün məsuliyyət, Azərbaycan qadınının taleyi üçün cavabdehlik hissi bir insan və ziyalı kimi Nurlana Əliyevaya xas nəcib xüsusiyyətlərdir. Bu gün onun ana olduğu ailədə beş alim yaşayıb-yaradır. Bu cəhətlər onun ictimai-mənəvi simasını müəyyənləşdirir, iş prinsiplərini təyin edir, ayarlarını formalaşdırır.

Professor Nurlana Əliyeva yeni start meydanındadır, bundan sonra fəaliyyətini Bakı Slavyan Universitetinin rektoru kimi davam etdirəcək. Ona bu məsul işdə sonsuz uğurlar, nailiyyətlər arzulayırıq.

***Nizaməddin ŞƏMSİZADƏ,***
***Dövlət mükafatı laureatı,***
***filologiya üzrə elmlər doktoru,***
***professor***